UOT 94(479.24)

XƏYALƏ AĞAYEVA
A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı,
ADU, Regionşünaslıq kafedrasının müəllimi
khayalayahyayeva@yahoo.fr

Ə.M.TOPÇUBAŞOVUN İSTANBULDA QƏRB DÖVLƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜ VƏ ONUN NƏTİCƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/57-61

Birinci Dünya müharibəsinin sona çatması ilə əlaqədar sülh və müharibədən sonrakı siyasi və iqtisadi məsələləri həll etmək üçün Parisdə beynəlxalq sülh konfransının çağırılmasına qərar verdilər. Yeni müstəqillik əldə etmiş Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti də bu konfransda iştirak etmək üçün Fransanın paytaxtına nümayəndə heyəti göndərmək qərarına gəldi. 1919-cu ilin yanvar ayının 20-dən başlayaraq Azərbaycan nümayəndə heyəti Fransa hökumətindən Parisə getmək üçün icazə gözləyirdi. Qafqazın digər nümayəndə heyətləri (gürcü, erməni və Dağlılar Respublikası) çoxdan Parisə gedib təbliğat işlərinə başlamalarına baxmayaraq, Azərbaycan nümayəndə heyəti üç ay yarım İstanbulda icazə gözləməli oldu.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti, Ə.M.Topçubaşov, İstanbul, Qərb ölkələri, diplomatik görüş.

Giriş. Ə.M.Topçubaşovun rəhbərliyi altında Azərbaycan Nümayəndə heyəti İstanbulda fəaliyyət göstərdiyi müddətdə burada olan xarici ölkə nümayəndələri ilə çoxsaylı görüşlər keçirmişdi. Ə.M.Topçubaşovu ilk olaraq Osmanlı dövlətinin hökumət adamları ilə görüşlər keçirmiş və bu zaman çox səmimiyyətlə qəbul edilmişdi. Dost və qardaş dövlətin rəhbərləri Azərbaycana mümkün olan hər cür köməyə hazır olduqlarını bildirmişdilər.

Əli Mərdan bəyin ilk rəsmi görüşü sədr-əzəm (baş nazir) Tələt paşa ilə oktyabrın 2-də olmuşdu. Tələt paşa son Berlin səfəri barədə Topçubaşova məlumat verərək göstərmişdi ki, o, Berlində eyni zamanda Azərbaycanın da maraqları istiqamətində işləmiş, lakin Avstriya, Macarıstan və Almaniya hələlik Azərbaycan dövlətinin müstəqilliyini qəbul etmək istəmirlər. Buna baxmayaraq Tələt paşa Qafqazda müstəqil Azərbaycan dövlətinin yaranması haqqında illərlə bəslədikləri arzunun gerçəkləşməsi istiqamətində çalışmağa hazır olduğunu bildirdi. Türkiyənin başqa rəsmi şəxsləri ilə Topçubaşovun sonrakı görüşləri də eyni ruhda keçmiş, onlar Azərbaycanı qonşuları ilə sərhəd məsələlərini tezliklə həll etməyə, Azərbaycan mövzusunu daha geniş təbliğ etməyə və gələcəyə inamla baxmağa çağırmışlar [1].

Lakin Mudros müahidəsindən sonra Osmanlı hökumətinin Azərbaycana köməyi artıq minimuma endi. Sultan Türkiyəsinin özü Müttəfiqlərdən tam asılı vəziyyətə düşdü. Müttəfiqlər Osmanlının Azərbaycana diplomatik nümayəndə təyin etməsinə pantürkizm meyli kimi baxmış, Osmanlı hökumətinə bunu qadağan etmişdi (Türkiyənin Ermənistan və Gürcüstana rəsmi nümayəndə təyin etməsi isə təbii hal sayılırdı). Əli Mərdan bəyin Bakıya rəsmi diplomatik nümayəndə göndərilməsi haqqında notasına cavab olaraq Osmanlı xarici işlər naziri göstərirdi ki, Azərbaycana diplomatik nümayəndənin təyin olunması məsələsi Müttəfiqlərin razılığı olmadan həll edilə bilməz və Azərbaycan Respublikasının istiqlaliyyətinin qəti tanınmasınadək buna ümid etmək olmaz [2, 3].

1919-cu ilin yanvar ayının 11-də Sultan VI Mehmed Azərbaycanın İstanbulda olan fövqəladə səlahiyyətli nümayəndəsi, Azərbaycan hökumətinin üzvü Topçubaşovu qəbul etdi. Danışıqlar zamanı Əlimərdan bəy sultana müraciət edərək dedi: "Əlahəzrət, bir müddət əvvəl Siz kiçik dövlət olan Azərbaycanın İstanbulda olan nümayəndələrini qəbul edərkən böyük ehtiramla demişdiniz ki, "azərbaycanlılar mənim istəkli övladlarımdır". Biz azərbaycanlılar həmişə səmimiyyətlə və məmuniyyətlə bu böyük şərəfi xatırlayırıq". Danışıqlar zamanı Əlimərdan bəy qeyd etdi ki, azərbaycanlıların çoxlu bədxahları vardı, lakin azərbaycanlılar heç vaxt bu bədxahlardan qorxmayıblar, çünki həmişə fikirlə-

şiblər ki, onların böyük dostu vardır. "Dost yox, qardaş" deyə sultan söhbətə başladı. O, bildirdi ki, bütün türklər azərbaycanlıların qardaşıdır və bu qardaşlıq əbədi olmalıdır. "Bis həmişə sizə həqiqi qardaş kimi baxmışıq və bundan sonra da baxacağıq. Siz Azərbaycanın nümayəndəsi kimi vəziyyəti düzgün qiymətləndirməlisiniz. Lakin heç vaxt ruhdan düşməməlisiniz. Bu, keçid dövrüdür. Mən inanıram ki, bütün müsəlman dünyası, züsusilə Osmanlı və Azərbayca türkləri tezliklə vəziyyətlərinin yaxşılaşmasının şahidi olacalar. Keçmişdə də belə hallar olub, lakin xalq ruhdan dümməməlidir və həmişə gələcəyə inanmalıdır.Mən inanıram, azərbaycanlılar gələcəkləri naminə çalışacaqlar. Əmin ola bilərsiniz ki, Osmanlı türkləri heç vaxt sizdən köməyini əsirgəməyəcəkdir" [4]. Bu görüş yeni yaranmış Azərbaycan dövlətinin həyatında mühüm hadisə idi və onun siyasi nüfuzunun yüksəlməsinə müsbət təsir göstərdi.

1919-cu il yanvarın ilk günlərində o, İstanbulda olan müttəfiqlərin və neytral ölkələrin nümayəndələri ilə görüşmüş, onlara Mudros sazişi ilə bağlı Azərbaycan Respublikasının etiraz notasını təqdim etmiş, İran və Rusiya diplomatları ilə danışıqlar aparmış, yanvar ayının 11-də Türkiyə Sultanı tərəfindən qəbul edilmişdir [5].

Ə.M.Topçubaşovun bir sıra qərb dövlətlərinin nümayəndələri ilə görüşləri. Topçubaşov İstanbulda ikən Osmanlı hökumətinin üzvlərindən başqa, Ukrayna, İran, Rusiya, ABŞ, İtaliya, İsveç, Hollandiya və Ermənistanın rəsmi nümayəndələri ilə görüşmüş, beynəlxalq vəziyyət və sülh konfransı haqqında onlarla fikir mübadiləsi etmiş, Qərb ölkələrinin nümayəndələrinə Azərbaycan haqqında məlumatlar vermişdi [14, s.148].

İstanbula gələn Ə.M.Topçubaşov müxtəlif ölkələrin burada olan rəsmi nümayəndələri ilə görüşmüş, müxtəlif siyasi məsələlər ətrafında onlarla fikir mübadiləsi etmiş, onlara Azərbaycan Respublikasının yaranması, hazırkı vəziyyəti və ölkələrilə diplomatik əlaqələr yaratması arzusu məzmununda rəsmi memorandum təqdim etmişdi.

Həmin Memorandumda Güney Qafqaz xalqlarının yaxın keçmişdəki dövlətçiliyi qısa şərh olunmuş, onun Rusiya imperiyası şəraitindəki idarəçiliyinin xüsusiyyətləri açıqlanmış, Fevral inqilabından sonrakı siyasi proseslər, regionun etnik tərkibi və hazırda buradakı millətlərarası qarşıdurmanın səbəbləri göstərilmiş, digər məsələlərə toxunulmuşdu [13, s.87]. Memorandumda, eyni zamanda Qafqazın coğrafiyası, onun çar dövründə inzibati bölgüsü və regionun demoqrafik vəziyyəti haqqında rəsmi statistik məlumatlar verilirdi. Topçubaşov göstərirdi ki, rus statistikası Qafqazdakı müsəlman əhalisinin sayını qəsdən azaltmasına baxmayaraq, burada onun hakim element olduğunu gizlədə bilməmişdir: Zaqafqaziyanın 7,6 milyon nəfərdən ibarət olan ümumi əhalisinin 3,3 milyonunu müsəlmanlar, 1,8 milyonunu ermənilər, 1,6 milyonunu gürcülər təşkil etmişdir. Müsəlman əhalisinin əksəriyyəti - 2,7 milyonu da Azərbaycan türklərindən (tatarlardan) ibarət idi. Dala sonra müəllif rus hakimiyyəti altında Qafqazda gedən proseslərin icmalını vermiş, ruslaşdırma siyasətinin ana xətlərini və nəticələrini göstərmiş, rus siyasətində erməni elementinə verilmiş roldan bəhs etmişdir. Çarizmin dağılmasından sonra Cənubi Qafqazla siyasi hadisələrin gedişini izah edən müəllif Azərbaycan Respublikasının yaranması şərtləri üzərində dayanır.

Azərbaycanın rəhbərliyi hesab edir ki, əhalinin etnik tərkibinə uyğun olaraq, Azərbaycan Respublikası ərazisi əski Bakı quberniyası ərazisinin hamısı, Yelizavetpol quberniyası (Qazax mahalının dağlıq hissəsi mübahisəli ərazi hesab edilməklə), əski İrəvan quberniyasının Naxçıvan mahalının beşdə biri, Yeni Bəyazid mahalının beşdə biri, Şərur-Dərələyəz mahalının yarısı, Tiflis quberniyasında Borçalı mahalı, Tiflis mahalının beşdə biri, Sığnax mahalının üçdə biri və Zaqatala dairəsindən ibarət olmalıdır.

Memorandumda göstərilirdi ki, İrəvan və Tiflis quberniyalarındakı mahalların bir hissəsi, eləcə də Zaqatala Azərbaycanın tərkib hissəsi hesab edilməlidir, çünki əksəriyyəti müsəlmanlardan ibarət olan bu ərazilərin əhalisi Azərbaycan Respublikasının tərkibinə daxil olmaq üçün dəfələrlə açıq-aydın müraciətlər etmişdir; bu əhalinin arzu və iradəsini yoxlamaq və təsdiq etmək üçün ümumi və açıq səsvermə keçirmək olar. Azərbaycanın göstərilən ərazisi 96,5 min kv. km. olub, rəsmi rus statistikasına görə burada 2.353 min əhali yaşayır, onların da əksəriyyəti türk müsəlmanlardan; eləcə də nisbətən azsaylı başqa müsəlman xalqların nümayəndələrindən (ləzgilər, farslar və b.) və 300 min ermənidən ibarətdir.

Memorandumda Azərbaycan Respublikasında mövcud vəziyyət, aparılan quruculuq işlərindən geniş bəhs edilir, burada erməni probleminin mahiyyəti, Mart hadisələri və Qarabağ məsələsi barədə məlumat verilirdi. Azərbaycan Respublikasının Qafqazda yaranmış yeni dövlətlərin konfederasiyanın tərəfdarı olduğu bəyan edilir, Azərbaycan Respublikasının müstəqil yaşamağa haqqı və qüdrəti olduğu əsaslandırılırdı [17, s.20-21].

Azərbaycan Nümayəndə Heyəti Türkiyə paytaxtına yetişənə qədər Ə.B.Topçubaşov İstanbulda çox mühüm görüşlər keçirmişdi. Yanvar ayının 6-da o, İstanbulda olan Amerika diplomatik nümayəndəsi mister Heyklə görüşüb danışıqlar aparmış və prezident V.Vilsonun "on dörd sülh prinsipi"-nin Azərbaycana şamil edilməsini, respublikanın istiqlaliyyətinin ABŞ tərəfindən tanınmasına köməklik göstərilməsini ondan xahiş etmişdi [11, s.322].

Bu dövrdə ABŞ-ın dünyada siyasi mövqeyi olduqca yüksək idi. Birinci dünya müharibəsindən sonra Amerika dünyada aparıcı güc dövlətinə çevrilmişdi.Təsadüfi deyil ki, ABŞ prezidenti Vudro Vilson "14 maddə" ilə müharibədən sonra qurulacaq yeni dünyanın şərtlərini irəli sürmüşdü [12, s.15]. Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov bütün bunları nəzərə alaraq, Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasında ABŞ-ın oynayacağı əhəmiyyətli rolu yaxşı başa düşürdü.

1919-cu il yanvarayının 10-da Əlimərdan bəy Topçubaşov Türkiyədəki Hollandiya nümayəndəsi Van Der Does de Villebua ilə görüşmüşdü. Görüş zamanı Villebua Ə.M.Topçubaşovun göndərdiyi memorandumu və oradan Qafqaz, habelə Azərbaycan haqqında çoxlu maraqlı məlumat aldığı bildirdi. O dedi: "Mən diqqət yetirdim ki, sizin zəngin ölkəniz var, ona görə də siz öz vəsaitinizi hesabına yaşaya bilərsiniz. Sizdə çoxlu neft, pambıq var, lakin dəmir yollarınız yetərli deyildir". Daha sonra Villebua memorandumun öz hökumətinə göndərəcəyini qeyd etmişdir [6].

Antanta ölkələrinin İstanbuldakı diplomatik nümayəndələrinə təqdim edilən memorandum, eyni zamanda İngilis və Fransız dillərinə tərcümə edilib Stokholma, Parisə, Cenevrəyə, Londona və Nyu-Yorka göndərilmiş, həmin sənədin mətni Türkiyə Xarici İşlər Nazirliyinə təqdim edilmişdi [10, s.173].

Ə.M.Topçubaşov İstanbuldakı ingilis nümayəndəsi ilə görüşmüş və ondan sülh konfrası haqqında məlumatlar almışdır. Nazirlər kabineti sədrinin adına noyabr ayının 20-də göndərdiyi məktubunda Topçubaşov məlumat verirdi ki, bundan bir gün əvvəl Ingilis nümayəndəsi polkovnik Tamplemlə görüş zamanı öyrəndim ki, konfrans iki-üç aydan sonra Parisdə olacaqdır [16, s.296].

Hələ dekabrın 30-da Əlimərdan bəy Azərbaycanın hazırkı vəziyyəti haqqında hazırladığı memorandumu İstanbulda olan İsveç səfiri S.Anşarsveldə təqdim etmişdi. İsveç səfiri ilə razılıq əsasında bu memorandumla Stokholmda olan böyük dövlətlərin diplomatik nümayəndələri də tanış edilməli idi. Yanvar ayının 12-də S.Anşarsveld Topçubaşova yazırdı: "Sizin dekabrın 30-da göndərdiyiniz Azərbaycanın indiki vəziyyəti haqqında memorandumu Stokholma, İsveç kral hökumətinin Xarici İşlər Nazirliyinə göndərdim [7].

Belə bir məlumatı İstanbulda olan ingilis ali komissarı R.Vebb də bildirird. O da öz növbəsində, Əlimərdanbəyin dekabr ayında ingilis nümayəndəliyinə təqdim etdiyi sənədi Böyük Briyaniya kral hökumətinə göndərdiyini yazırdı [8].

Yanvar ayının 5-də və 6-da xarici nümayəndəliklərin yerləşdiyi İstanbulun "Pera Palas" mehmanxanasında Topçubaşov ağqvardiyaçı Kolçak və Denikin hökumətinin nümayəndəsi kimi Paris Sülh Konfransına gedən S.D.Sazonovla görüşdü. Sergey Dmitriyeviç 1883-cü ildən fəaliyyətə başlayan tanınmış rus diplomatı idi. Böyük Britaniya, ABŞ və Vatikanda diplomtik işdə çalışmışdı, 1909-cu ildən 1916-cı ilə kimi Rusiya imperiyasının xarici siyasət aparatına rəhbərlik etmiş, Antantanın yaradılmasında xüsusi xidmətləri olmuşdu [15, s.6-7]. Lakin o, Rusiya imperiyasının dağılması və yeni dövlətlərin yaranması ilə heç çür razılaşmaq istəmirdi. ... 1918-ci ilin dekabr ayının 7-də Əlimərdan bəyin belə bir görüşü Rusiyanın keçmiş xarici işlər naziri Pavel Milyukovla da olmuşdu. Lakin Milyukovla danışıqlar prosesi göstərdi ki, o da Sazonov kimi vahid Rusiya tərəfdarıdır.

İlk danışıqlardan P.N.Milyukovun və S.D.Sazanovun Paris Sülh Konfransında "vahid və bölünməz Rusiya" uğrunda mübarizə aparacaqları gös qabağında idi. Əlimərdan bəy Azərbaycanın Rusiyanın əsarətindən qurtarıb müstəqil respublika yaratdığını və Rusiyanın daxili işlərinə qarışmayacağını əsaslandıraraq bildirdi: "Biz azərbaycanlılar rusların düşməni deyilik və onlara öz ölkələrində

istədikləri kimi, bolşevizm, sosializm, ya da lap elə monarxizm əsasında öz həyatlarını sahmana salmağı arzu edirik.

Azərbaycanlılar 5-6 milyondurlar, Vilsonun prinsiplərinə əsasən, müstəqil yaşamaq üçün onların əlində əsasları var və biz həmişə müstəqil yaşamağa can atacağıq, yaxın qonşularımızla birgə həyata cəhd göstərəcəyik".

1919-cu il yanvar ayının 3-də Bakıda olan Müttəfiq qoşunlarının baş komandanı V.Tomson Parisə səfəri asanlaşdırmaq üçün Fransada olan Britaniya səfirinin adına Azərbaycan nümayəndə heyətinə öz imzası ilə zəmanət məktubu vermişdi. O, Ə.M.Topçubaşovun adına verdiyi zəmanət məktubunda yazırdı ki, onlar Azərbaycan hökuməti adından, Qafqazın gələcək hökuməti adından öz görüşlərini müttəfiqlərin nümayəndələri qarşısında qoymaq arzusundadırlar".

"Xarici işlər nazirinin müavini Adil xan Ziyadxanovun yanvar ayının 8-də Əlimərdan bəyin adına imzaladığı sənəddə xahiş edilirdi ki, sülh konfransı tərəfindən Qafqazın taleyi həll edilənə qədər hazırda məhv olmaq təhlükəsi ilə üzləşmiş İrəvan quberniyasının müsəlman əhalisinin maraqlarını müttəfiq dövlətlər qarşısında müdafiə etsin və Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan bu ərazidə mövcud status-kvonun qorunmasına çalışsın. Eyni ilə Batum, Qars və Axalsıx müsəlmanlarının maraqlarının da müdafiə edilməsi Sülh heyətinin sədri və üzvlərindən xahiş edilirdi" [11, s.321].

Bütün cəhdlərə baxmayaraqbaşda Əli Mərdan bəy Topçubaşov olmaqla,tanınmış jurnalist Əhməd bəy Ağaoğlu və "Azərbaycan"qəzetinin başredaktoru Ceyhun bəy Hacıbəyli (1892-1962), "Hümmət" firqəsinin rəisi Əkbərağa Şeyxülislamov (1891-1961), sosialist Məmməd bəy Məhərrəmov, ittihadçı MirYaqub Mir Mehdiyevdən (1891-1952) ibarət nümayəndə heyətinin İstanbulda ləngiməsi Fransaya daxil olmaq üçün icazə uzadıldığından üç ay çəkdi. Üstəlik Əhməd bəy Ağaoğlunun ingilislər tərəfindən həbs olunaraq yaxın olduğu "İttihad və Tərəqqi" komitəsi üzvlərilə birlikdə Malta adasına sürgün edilməsi anlaşılmazlıq yaratdı [9].

Yanvar ayında Əlimərdan bəyin İranınxarici işlər naziri ilə keçirdiyi görüşün mühüm əhəmiyyəti oldu. 1919-cu ilin yanvar ayının 9-da o, İranın xarici işlər naziri Əliqulu xan Ənsari (Müşavirülməmalik) ilə geniş danışıqlar apardı. Məlum olduğu kimi, İranın Azərbaycan Respublikasının yaranmasına münasibəti o qədər də müsbət deyildi. İstanbuldakı yanvar danışıqları zamanı İran tərəfinin inkarçılıq mövqeyini bir qədər yumşaltmaq mümkünolmuşdu [11, s.328].

Nəticə. Beləliklə, Əlimərdan bəy Topçubaşov başda olmaqla Azərbaycan Sülh heyətinin Versal Sülh Konfransının keçirildiyi Paris şəhərinə buraxılmasını, Azərbaycan nümayəndələrinin İstanbulda üç aydan artıq apardığı gərgin mübarizənin nəticəsi hesab etmək olar. Konfransın qaynar vaxtında Fransanın paytaxtına gələn, süni maneələrlə üzləşmiş Azərbaycan heyəti məqsədyönlü addımlarının ilkin yekununu əldə etmiş, indi isə onların qarşısında öz ölkələrinin müstəqilliyinin beynəlxalq birlik tərəfindən tanıdılmasına nail olmaq kimi mühüm bir vəzifə dururdu.

ƏDƏBİYYAT

1. ARDA, f. 894, 10, iş 150., v.1-3 a.
2. ARDA, f. 970, siy. 1, iş 68, v.11, 14.
3. ARDA, f. 894 , siy. 10, iş 152., v.4.
4. ARDA, f.970, siy. 1, iş 158, v.1.
5. ADRA,f. 970, siy.1, iş158, v.3.
6. ARDA, f.894, s. 10, i.151, v.52-53.
7. ARDA, f.970, s.1,i.37, v.1.
8. ARDA,AF.970, S.1, iş 139,v.2.
9. ARDA, f.894, s.10, i. 147, v.34
10. Həsənli.C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918- 1920). Bakı, Garışma MMC, 2009, 576 s.
11. Həsənli C. Tarixi şəxsiyyətin tarixi. Bakı: Azərbaycan Diplomatik Akademiyası, 2013, 588 s.
12. M.Fətəliyev. Türkiyə məsələsi və böyük dövlətlər beynəlxalq konfranslarda; Sevr müqaviləsi. Bakı, Sabah" nəşriyyatı, 2017, 157 s.

13. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, BUN, 1998, 385 s.
14. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, "Ay-Ulduz" nəşriyyatı, 1996, 304 s.
15. Дипломатический словарь. Т.III. М., Наука, 1986, 502 с.
16. Гасанлы Дж. Руская революция и Азербайджан. Трудный путь к независимости 1917-1920. Москва, Изд-во «ФЛИНТА», 2011, 665 с.
17. Топчибашев А.М. Меморандум. Баку, Изд-во «Азербайджан», 1993, 40 с.

ХАЯЛА АГАЕВА
Докторант Института истории им. А.А.Бакиханова,
АУЯ, преподаватель кафедры регионоведения

ВСТРЕЧА А.М.ТОПЧУБАШОВА С ПРЕДСТАВИТЕЛЯМИ ЗАПАДНЫХ СТРАН В СТАМБУЛЕ И ЕЕ ИТОГИ

Делегации Азербайджанской Демократической Республики пришлось три с половиной месяца ждать в Стамбуле разрешения принять участие в международной мирной конференции, созванной в Париже для решения послевоенных политических и экономических вопросов, связанных с окончанием Первой мировой войны. Под руководством А.М. Топчубашова, Азербайджанская делегация во время пребывания в Стамбуле провела многочисленные встречи с представителями зарубежных стран и обменялась принципиальными взглядами на будущие отношения.

Ключевые слова: Делегации Азербайджанской Демократической Республики, А.М. Топчубашов, Стамбул, западные страны, дипломатические встречи.

KHAYALA AGAYEVA
PhD student at the A.A.Bakikhanov Institute of History,
Teacher of the Department of Regional Studies, AUL

MEETİNG OF A.M.TOPCHUBASHOV WITH REPRESENTATIVES OF WESTREN COUNTRIES IN ISTANBUL AND ITS RESULTS

The delegation of the Azerbaijan Democratic Republic had to wait three and a half months in Istanbul for permission to take part in the international peace conference called in Paris to resolve the post-war political and economic issues due to the end of the First World War. Under the leadership of A.M. Topchubashov, the Azerbaijani delegation held numerous meetings with representatives of foreign countries during its stay in Istanbul and exchanged principled views on future relations.

Keywords: The delegation of the Azerbaijan Democratic Republic, A.M. Topchubashov, Istanbul, western countries, diplomatic meetings.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: s.e.d. Sevdagül Əliyeva, t.e.d. Qabil Əliyev.